BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3* *Humanitar elmlər seriyası* *2014*

# 95 İLLİK ŞƏRƏFLİ YOL

**A.M.MƏHƏRRƏMOV**
*Bakı Dövlət Universiteti*



**Əziz həmkarlarım!**

Ümummilli lider Heydər Əliyevin «Azərbaycan xalqının milli sərvəti» adlandırdığı, mənəvi böyüklüyümüzün simvolu, elm, təhsil və mədəniyyətimizin əzəmətli məbədi, şərqin ilk dünyəvi ali məktəblərindən biri, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı, XX əsrdə çətin və əzablı, eyni zamanda böyük inkişaf yolu keçmiş Bakı Dövlət Universitetinin 95 yaşı tamam olur. 95 illik fəaliyyəti dövründə ilk ali təhsil ocağı kimi Bakı Dövlət Universiteti ölkə həyatının bütün sahələrinə nüfuz edərək elm və təhsilin inkişafı sahəsində mədəni keçmişimizin öyrənilməsində, habelə milli özünüdərkin formalaşmasında əvəzsiz xidmətlər göstərmişdir. Bakı Dövlət Universitetinin xalq qarşısındakı böyük xidmətlərini səciyyələndirən bir amili də qeyd etmək olar ki, bu

illər ərzində onun 6 yubileyi dövlət səviyyəsində qeyd edilmişdir. Fərəhləndirici haldır ki, 10 illik yubiley istisna olmaqla, bu altı yubileydən dördü – 50, 60, 75 və 80 illik yubileylər ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilmişdir. Bu, ümummilli liderimizin böyüklüyü, fenomenliyi, təhsilə və elmə olan münasibəti, məzunu olduğu Bakı Dövlət Universitetinə qəlbən bağlılığı idi. Bakı Dövlət Universitetinə dövlət qayğısını fasiləsiz olaraq həyata keçirən ümummilli liderin layiqli davamçısı, möhtərəm prezidentimiz cənab İlham Əliyevin Bakı Dövlət Universitetinin 90 illik yubileyinin keçirilməsi haqqında imzaladığı 24 aprel 2009-cu il tarixli sərəncam, 2008-ci ilin 15 sentyabrında Bakı Dövlət Universitetinin yeni korpusunun açılış mərasimində və 2 noyabr 2009-cu ildə Universitetin 90 illik yubiley tədbirində söylədiyi xoş sözlər, heç şübhəsiz, bizi elmdə və təhsildə daha yüksək uğurlar qazanmağa, yaradıcılıq axtarışlarını inamla davam etdirməyə istiqamətləndirir.

Bakı Dövlət Universiteti fəaliyyət göstərdiyi dövr ərzində yüz əlli minə yaxın mütəxəssis, o cümlədən, dünyanın bir çox dövlətləri – Orta Asiya və Qazaxıstan, Yaxın və Orta Şərq, Cənub-Şərqi Asiya, Latın Amerikası, Afrika ölkələri üçün yüzlərlə yüksəkixtisaslı kadr hazırlamışdır.

Hər bir ölkənin iqtisadi, mədəni və intellektual səviyyəsinin barometri hesab edilən milli universitet missiyasını Respublikamızda şərəflə həyata keçirən Bakı Dövlət Universitetində 17 fakültə, 125 kafedra, 2 elmi-tədqiqat institutu, 4 elmi-tədqiqat mərkəzi, 24 elmi-tədqiqat laboratoriyası, 3 milyona yaxın fonda malik fundamental kitabxana fəaliyyət göstərir.

**Dəyərli həmkarlarım!**

Ulu öndərimiz Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursu sayəsində elmdə, təhsildə qazandığımız uğurlar göz qabağındadır. Bu uğurlar bütövlükdə nəinki müstəqil Azərbaycanda, habelə ondan xeyli uzaqlarda da görünür. Region ölkələri və ümumiyyətlə, MDB məkanında lider dövlətlərdən birinə çevrilən Azərbaycanın ilk ali məktəbi Bakı Dövlət Universiteti də eynilə öz kadrları ilə MDB məkanında və ondan kənarlarda aparıcı ali məktəblərdən birinə çevrilmişdir. Bu, dövlətin böyük qayğısı və bizim hamımızın gərgin əməyinin nəticəsidir.

On beş il bundan öncə Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə ümummilli liderimiz Heydər Əliyevin **«...Bakı Dövlət Universiteti indiyə qədər olduğu kimi, Azərbaycan ali təhsilinin önündə gedir. O, Azərbaycanda olan bütün universitetlərin, institutların və digər ali təhsil ocaqlarının hamısına örnəkdir, gözəl təcrübə əldə edibdir**» sözləri bizim qarşımızda böyük öhdəliklər qoymuşdur. Bu illər ərzində biz Universitetdə elm və təhsilin daha da yüksək zirvələrə çatması üçün əlimizdən gələni əsirgəməmişik; bu illər elmin, tədrisin, sosial rifahın tərəqqisi illəri olmuşdur, BDU-da elmi-tədqiqat institutları və laboratoriyalarının elmi istiqamətlərinin aktuallığı müəyyənləşdirilmiş, maddi-texniki baza xeyli gücləndirilmiş, aparılan tədqiqatların nəticələrinin tətbiqi həyata keçirilmiş, elmin ən aktual problemləri üzrə yeni kafedralar, elmi-tədqiqat institutu, mərkəz və laboratoriyalar açılmış, istedadlı

gənc kadrlar elmi işlərə cəlb edilmişdir. Bakı Dövlət Universitetinin 15 sentyabr 2008-ci ildə yeni korpusunun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev demişdir: «**Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada çox güclü professor-müəllim heyəti vardır və bütün dövrlərdə universitet Azərbaycanda peşəkar kadrların hazırlanması işində çox böyük işlər görmüşdür. Bu gün isə universitet inkişafının yeni mərhələsini yaşayır. Həm təhsilin keyfiyyəti artır, həm də universitetin maddi-texniki bazası möhkəmlənir. Bir sözlə, bizim – Azərbaycanın yerləşdiyi bu bölgədə Bakı Dövlət Universitetinin xüsusi çəkisi vardır**». 2 noyabr 2009-cu ildə Universitetin 90 illik yubiley tədbirində Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "**Bakı Dövlət Universiteti Azərbaycanın inkişafı, Azərbaycanda təhsilin inkişafı, elmi potensialın gücləndirilməsi üçün çox mühüm rol oynamışdır. Bu rol bu gün də davam edir. Çox sevindirici haldır ki, Bakı Dövlət Universiteti bütün bu illər ərzində Azərbaycanda təhsil sahəsində öz aparıcı rolunu qoruyub saxlaya bilmişdir və bu gün bu rol daha da güclənir. Bu bir daha onu göstərir ki, universitetin çox zəngin ənənələri, çox böyük potensialı, professor-müəllim heyətinin təcrübəsi, tələbələrin oxuması və təhsilə verdikləri önəm vardır. Bakı Dövlət Universitetinin məzunları öz fəaliyyətləri ilə ölkəmizin çiçəklənməsinə dəyərli töhfələrini vermişlər.**" Bir sözlə, universitetdə tədris, elm və sosial sahədə böyük islahatlar həyata keçirilmişdir.

**Əziz həmkarlarım**!

Ötən illər ərzində Bakı Dövlət Universitetində dünya elminə nüfuz edən, özlərinin elmi məktəblərini yaratmış onlarla dəyərli alim çalışmışdır. Böyük şərəf hissi duyuruq ki, elmin yüksək zirvələrini fəth etmiş kimyaçı Yusif Məmmədəliyev, Murtuza Nağıyev, Əli Quliyev, Soltan Mehdiyev, riyaziyyatçı Zahid Xəlilov, Azad Mirzəcanzadə, Məcid Rəsulov, Əşrəf Hüseynov, İbrahim İbrahimov, Fərəməz Maqsudov, fizik Həsən Abdullayev, bioloq Abdulla Qarayev, Səttar Əsədov, Hüseyn Həsənov, Yusif Əbdürrəhmanov, Dəmir Hacıyev, geoloq Mirəli Qaşqay, Musa Əliyev, Şəfayət Mehdiyev, Ədhəm Şıxəlibəyli, Faiq Bağırzadə, Xudu Məmmədov, coğrafiyaçı Həsən Əliyev, Qasım Gül, Hadı Əliyev, Ənvər Şıxlinski, filoloq Məmməd Arif Dadaşzadə, Məmməd Ağa Şirəliyev, Həmid Araslı, Mir Cəlal Paşayev, Bəxtiyar Vahabzadə, Cəfər Cəfərov, Məmməd Cəfər Cəfərov, Cəfər Xəndan Hacıyev, Feyzulla Qasımzadə, Məmməd Hüseyn Təhmasib, Kamal Talıbzadə, jurnalist Nəsir İmanquliyev, İsrafil Nəzərov, Rəşid Mahmudov, tarixçi İsmayıl Hüseynov, Əlisöhbət Sumbatzadə, Ziya Bünyadov, Püstə xanım Əzizbəyova, İqrar Əliyev, Tofiq Köçərli, Zülfəli İbrahimov, Əlövsət Quliyev, Mahmud İsmayılov, Qaraş Mədətov, hüquqşünas Vahid Qəhrəmanov, Məmməd Xələfov, şərqşünas Bəkir Çobanzadə, Ələsgər Məmmədov, Rəhim Sultanov, Məmməd Mübariz Əlizadə, Aida İmanquliyeva, Rüstəm Əliyev, filosof Heydər Hüseynov, Mehbalı Qasımov, Firudin Köçərli, iqtisadçı Həsən Dadaşov və adı çəkilməyən bir sıra görkəmli şəxsiyyətlər təkcə universitetin deyil, bütün xalqımızın fəxridirlər.

Respublikamız üçün milli, həmçinin dünyanın digər dövlətləri üçün kadrların hazırlanmasında əvəzsiz xidmətləri olan, böyük müəllim və alimlər – ömürlərinin əsas hissəsini Universitet divarları arasında keçirmiş kimyaçı Murtuza Əhmədli, Cəbrayıl Hüseynov, Cümşüd Zülfüqarlı, İsrafil Səttarzadə, Əlihüseyn Quliyev, Şamil Əhmədov, riyaziyyatçı Məmmədbəy Əfəndiyev, Maqsud Cavadov, Qoşqar Əhmədov, Yusif Əmənzadə, Arif Babayev, Yəhya Məmmədov, fizik Bəhram Mirzəyev, Lətif İmanov, Kəriş Köçərli, Qüdrət Axundov, Yuhənnas Seyidov, Abdulla Muxtarov, Bəhram Əsgərov, bioloq Mirəli Axundov, Abdulla Ələkbərov, Abdulla Tağızadə, Vahid Hacıyev, Tofiq Məmmədov, geoloq Səttar Süleymanov, Əziz Əskərov, Qədir Sultanov, Sübhi Bəktaşi, Vasif Əliyev, Ələşrəf Məmmədov, coğrafiyaçı Əbdürrəhim Hacızadə, Əsgər Əyyubov, Muxtar Abduyev, Rizvan Piriyev, Şahvələd Xəlilov, Müseyib Müseyibov, filoloq Muxtar Hüseynzadə, Əli Sultanlı, Mikayıl Rəfili, Abbas Zamanov, Hadı Mirzəzadə, Əlövsət Abdullayev, Fərhad Zeynalov, Firudin Hüseynov, tarixçi Ədhəm Şahmalıyev, Mehdi İrəvanski, Ruhulla Orucov, Məlik Orucov, Səfiyar Musayev, Əliyar Süleymanlı, Tofiq Vəliyev, hüquqşünas Qasım Cəfərov, İsa Məmmədov, Tofiq Qafarov, Məlik Orucov, Cəfər Mövsümov, şərqşünas Cahangir Qəhrəmanov, Həsən Mahmudov, Zakir Məmmədov, Böyükağa Hüseynov, Malik Mahmudov, jurnalist Həsən Şahgəldiyev, Rza Quliyev, Nurəddin Babayev, Famil Mehdi, Tofiq Rüstəmov, filosof Aslan Aslanov, Həsən Şirəliyev, Məmmədəli Zeynalov, iqtisadçı Teymur Vəliyev və onlarla başqaları bu əziz yubiley günlərində böyük ehtiramla bir daha xatırlanır.

Bu gün də elmimizin sükanı etibarlı əllərdədir. Universitet tələbələrinin təlim-tərbiyəsi ilə 1500-ə yaxın professor-müəllim məşğul olur ki, onlardan təxminən 200 nəfəri dövlətin ali orden və medalları ilə təltif edilmiş, 21-i AMEA-nın həqiqi və ya müxbir üzvü, 41-i Əməkdar elm xadimi, 5-i Dövlət mükafatı laureatı, 12-i Milli Məclisin deputatıdır; 300-ə yaxını elmlər doktoru, professor, 900-dən artıq elmlər namizədi, dosentdir ki, öz vəzifələrini şərəf və ləyaqətlə yerinə yetirirlər.

Şanlı ənənələri davam etdirmək, Azərbaycan elminin dünya elminə inteqrasiyasını sürətləndirmək üçün hər cür maddi və intellektual imkanlarımız vardır. «Bakı Universitetinin Xəbərləri» jurnalının dörd seriyasında (fizika-riyaziyyat, təbiət, humanitar, sosial-siyasi) işıq üzü görən və elmin ən müxtəlif sahələrini əhatə edən aktual məqalələr dediklərimin əyani sübutudur.

**Əziz həmkarlarım!**

Bu il biz doğma Universitetimizin 95 illik yubileyini qeyd etməklə həm də 100 illik yubileyə start veririk. Bu gün 20 minədək tələbəsi olan Bakı Dövlət Universitetində bakalavriat səviyyəsində 60 ixtisas üzrə 18.000, magistratura səviyyəsində 200 ixtisaslaşma üzrə 1500, doktorantura səviyyəsində 70 ixtisas üzrə 700 nəfərdən çox kadr hazırlanır. Burada 1500 nəfərə yaxın professor-müəllim heyəti çalışır ki, onların arasında dünya birliyinin yaxşı tanıdığı görkəmli alimlər vardır. Məhz bu elmi potensialın sayəsində BDU alimləri tərə-

findən dünyanın reytinqli jurnallarında sanballı məqalələr çap olunur, beynəlxalq simpoziumlarda məruzələr edilir. Bakı Dövlət Universiteti dünyanın 60 ölkəsinin 300-dən çox universiteti ilə əməkdaşlıq haqqında müqavilə imzalamışdır. Beynəlxalq və regional səviyyədə əməkdaşlıq universitetin inkişafına, beynəlxalq reytinqinə çox böyük təsir göstərir. Artıq dörcüncü ildir ki, BDU "QS World University Rankings" reytinqinə görə dünyanın 150 min universiteti arasında 700 top universitetinin, həmçinin Beynəlxalq Akademik Perspektivlər İnstitutu (URAP) tərəfindən dünyanın 2000 ən yaxşı universitetinin siyahısına daxil edilib. Təsadüfi deyil ki, Bakı Dövlət Universiteti kimya (nanomateriallar və nanotexnologiyalar) sahəsindəki nailiyyətlərinə görə "Elm və Texnologiya sahəsində 2012-ci ilin İSESCO mükafatı"na layiq görülüb. Bu mükafat hər 2 ildən bir biologiya, kimya, geologiya, riyaziyyat və fizika sahəsində 56 iştirakçı ölkələrdən olan yalnız bir alimə verilir.

Bakı Dövlət Universitetinin əməkdaşları, gənc tədqiqatçıları, doktorant və dissertantları hər il dəyəri 5 milyon ABŞ dolları həcmində olan 90-a qədər Beynəlxalq və regional səviyyəli qrant layihələrinin yerinə yetirilməsində iştirak edirlər. Son illər universitet əməkdaşları tərəfindən, xüsusilə regional universitet və elmi təşkilatların iştirakı ilə müştərək layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirilir.

Bakı Dövlət Universiteti 1991-ci ildən Avroasiya, 1996-cı ildən Xəzəryanı Ölkələr, 1997-ci ildən Qara Dəniz Ölkələri, 2003-cü ildən Avropa, 2010-cu ildən Qafqaz Universitetləri Assosiasiyalarının üzvüdür.

Ölkədə məqsədyönlü siyasətin aparılması, gənclərin elmə marağının ildən-ilə artması, beynəlxalq birlikdə elm və təhsil uğurları ilə daha əhəmiyyətli nüfuz sahibi olmağın həqiqətə çevrilməsi nəticəsində Bakı Dövlət Universitetinin daha böyük nailiyyətlərə imza atacağına inanıram.

Sizin hər birinizə uğurlar arzulayıram, 95 illik yubileyiniz mübarək!